# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın hazırlanması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 24 iyun tarixli 383s nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq:

1. “Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın hazırlanması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 24 iyun tarixli 383s nömrəli Sərəncamında (bundan sonra – Sərəncam) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Sərəncamla təsdiq edilmiş “Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası üzrə Alt İşçi

qrup”u üzrə “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini” abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

“Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

“Azərenerji” Açıq Səhmdar Cəmiyyəti İdarə Heyəti sədrinin müavini

“Azərişıq” Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini”;

1.2. “Yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini üzrə Alt İşçi qrup”u üzrə “Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Azərenerji” Açıq Səhmdar Cəmiyyəti İdarə Heyəti sədrinin müavini”.

2. Bu Sərəncamın 1-ci hissəsində qeyd olunan dövlət orqanları (qurumları) alt işçi qruplarda təmsil olunacaq nümayəndələri barədə təkliflərini 3 (üç) gün müddətində alt işçi qrupların rəhbərlərinə təqdim etsinlər.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 28 ” “ avqust ” 2025-ci il

№ 529s